

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

28 iyul 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 29 (3592)


# UĞURLU İQTİSADİ YÜKSƏLİŞ GƏLƏCƏYİN TƏMİNATIDIR

## *Yeni sosial-iqtisadi inkişaf strategiyasının reallaşması 2026-cı ilin sonuna qədər böyük dəyişikliklərə səbəb olacaq*



"Öz tarixi ərazi bütövlüyünü təmin etməklə ölkəmiz yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük transformasiya astanasına keçid edir. Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilmişdir".

Bu fikirlər Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"nda öz əksini tapır.

Hazırda Azərbaycan Cənubi Qafqazın ən sürətlə inkişaf edən qüdrətli dövlətidir. Avrasiyada nəqliyyat-tranzit körpüsü sayılan Azərbaycan həm də etibarlı tərəfdaşdır. Bunun da səbəbi ilk növbədə Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasətdir. Məhz bu siyasət Azərbaycana iqtisadi və siyasi müstəqillik qazandırıb. İqtisadi müstəqilliyi olan ölkə isə, təbii ki, heç kimdən asılı olmur. Yəni, bu gün Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda həyata keçirdiyi quruculuq işlərini təkbaşına apardığı kimi. Azərbaycan həm də beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir, onun təşəbbüsü, habelə iştirakı ilə qlobal layihələr uğurla icra edilir. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaradıb. Bu layihələrin uğurla həyata keçirilməsi ölkəmizin regionda proseslərin inkişaf vektorunu müəyyən edən və dünya iqtisadiyyatında söz sahibi olan "qlobal oyunçu" statusunu təmin edib.

Sənəddə həmçinin vurğulanır ki, Azərbaycan postpandemiya və postmünaqişə dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir.

Məhz bu məqsədlə "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olunub və bu prioritetlərə söykənən "2022-2026-cı illərdə sosialiqtisadi inkişaf strategiyası" hazırlanıb.

Bir sözlə, yeni sosial-iqtisadi inkişaf strategiyası Azərbaycanın hərtərəfli yüksəlişi üçün yol xəritəsidir. Strategiyanın tədbirlər planında nəzərdə tutulan bütün layihələrin uğurlu icrası Azərbaycanı daha da qüdrətləndirəcək.

# BAĞLI QALAN CİNAYƏTİN İZİ İLƏ...

## *Heç bir cinayət bağlı, cinayətkar cəzasız qalmır*

Polis və prokurorluq orqanları əməkdaşlarının əvvəlki illərdən bağlı qalan cinayətlərin açılması istiqamətində keçirdikləri istintaq-əməliyyat tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilən növbəti ağır cinayətin üstü açılıb.

Belə ki, 2020-ci il oktyabr ayının 11-də Suraxanı rayonunun Hövsan qəsəbəsi ərazisində Türkan qəsəbə sakini Rüstəm Bayramovun üzərində küt alətlə yetirilmiş xəsarətlər olan meyiti tapılıb.

Aparılan istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində R.Bayramovun əvvəllər məhkum olunmuşlar - Bərdə rayon sakini Rəşad Kərimov, Astara rayon sakinləri Tahir Ələkbərov və Radiq Feyziyev tərəfindən daşla öldürülməsinə əsaslı şübhələr müəyyən edilib.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində R.Kərimov tutularaq istintaqa təhvil verilib.

R.Feyziyev və T.Ələkbərov isə Cinayət Məcəlləsinin 234-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) maddəsi ilə tutulduqları üçün hazırda Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 3 saylı İstintaq Təcridxanasında saxlanılırlar.

# Rəsmi xronika

***Azərbaycan Prezidenti İlham Əliyev iyulun 25-də Araz Əhmədovu Masallı Rayon İcra Hakimiyyətinin başçısı, Əkbər Abbasovu Lerik Rayon İcra Hakimiyyətinin başçısı və Elvin Paşayevi Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib.***

***Dövlətimizin başçısı iyulun 25-də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çoxillik səmərəli fəaliyyətinə görə Reza Deqatinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri iyulun 27-də Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinindavam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında sərəncam imzalayıb.***

# Prezidentin Mətbuat Xidmətinin məlumatları

**İyulun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Dövlətimizin başçısı Şavkat Mirziyoyevi ad günü münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi Azərbaycana rəsmi səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul olunub.

Dövlət başçıları məmnunluq hissi ilə qeyd ediblər ki, Azərbaycan Prezidentinin səfəri zamanı əldə olunmuş bütün razılıqlar icra edilir. Vurğulanıb ki, səfərdən bir ay vaxt keçməsinə baxmayaraq, ticarət, sənaye, energetika, kənd təsərrüfatı, nəqliyyat sahələri ilə bağlı müvafiq dövlət orqanlarının rəhbərlərinin qarşılıqlı səfərləri çərçivəsində əməkdaşlığın genişləndirilməsi ilə əlaqədar razılığa gəlinib.

❖❖❖❖❖

**İyulun 25-də Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Dövlət katibi Antoni Blinken ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini qeyd edərək, Tbilisidə iki ölkənin xarici işlər nazirlərinin görüşünü və birbaşa dialoqunu müsbət qiymətləndirdiyini bildirib.

Prezident İlham Əliyev Tbilisidə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsini iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqların başlanması istiqamətində ilk addım kimi qiymətləndirib. Antoni Blinken, həmçinin ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğunu ifadə edib.

Söhbət zamanı bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı Komissiyası arasında enerji sahəsində imzalanmış anlaşma memorandumunun əhəmiyyəti məmnuniyyətlə qeyd olunub.

Sonra dövlətimizin başçısı humanitar məsələlərə toxunaraq, birinci Ermənistan-Azərbaycan müharibəsindən 3890 nəfərdən artıq azərbaycanlının itkin düşmüş şəxs hesab olunduğunu bildirib və Ermənistan tərəfinə dəfələrlə müraciət edilməsinə baxmayaraq, kütləvi məzarlıqların yerləri barədə məlumat verilməməsinə diqqəti çəkib.

Prezident İlham Əliyev Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistan tərəfindən kütləvi şəkildə minaların basdırıldığını və müharibənin başa çatmasından bəri 240 nəfərdən artıq vətəndaşımızın mina partlayışlarında həlak olduğunu və ya sağlamlığını itirdiyini qeyd edib.

# HƏDƏFİ DÜŞMƏN OLAN İGİD SNAYPER...

## Onlar Vətən müharibəsində Çanaqqala rüzgarı əsdirdilər



Vətən uğrunda şəhidlik zirvəsinə ucalmış çavuş Cəbrayıllı İbrahim Raqub oğlu 1999-cu il fevralın 3-də Zərdab rayonunun Məlikumudlu kəndində doğulub. İbrahim orta təhsilini Məhəmməd Füzuli adına Məlikumudlu kənd tam orta məktəbində alıb.

O, müddətli həqiqi hərbi xidmətini 2017-ci ilin iyul ayından 2019-cu ilin yanvar ayınadək Daxili Qoşunların Bakıdakı və Lənkərandakı "N" saylı hərbi hissələrində keçib. Bu dövrdə qoşunların Hacıqabul rayonundakı "N" saylı hərbi hissəsində kiçik komandirlər kursunu bitirərək, "çavuş" hərbi rütbəsinə yüksəlib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilərək, baş atıcı vəzifəsində Vətənə olan şərəfli borcunu yerinə yetirməyə davam edib. 2019-cu ilin oktyabr ayından etibarən isə həmin hərbi hissənin "Pələng" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunda snayper kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib.

Daxili Qoşunların Gəncə şəhərindəki "N" saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin komandiri olmuş, Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Zaur Rəhimov (hazırda Quba rayonundakı "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri) vaxtilə tabeliyində xidmət etmiş İbrahimin cəsurluğundan qürur hissi ilə danışır: "Çavuş İbrahim Cəbrayıllı əsl vətənpərvər, cəsur döyüşçü idi. Dəstəmizdə yaşda hər kəsdən kiçik olsa da, nizam-intizamı, təlim-tərbiyəsi, xoş rəftarı ilə böyük hörmət və nüfuz qazanmışdı. Sərrast atıcı, əsl snayper idi. İbrahim mənim, eləcə də onu tanıyan bütün silahdaşlarının xatirələrində məhz bu cür qalıb. Döyüş meydanında cəsur snayper kimi düşmənə gözdağı verməklə, hərbi andına sadiq əsl vətənpərvər xüsusi təyinatlı olduğunu bir daha təsdiq etdi".

Çavuş İ.Cəbrayıllının döyüş yolu qısa olsa da, Murovdağ silsiləsinin Kəlbəcər istiqamətində bir sıra strateji əhəmiyyətli yüksəkliklərin azad olunmasında və düşmənin xeyli sayda canlı qüvvəsinin məhv edilməsində böyük şücaət göstərib. Lakin döyüşçü yoldaşlarının da qeyd etdikləri kimi, 2020-ci il sentyabrın 29-da cəbhənin bu istiqamətində düşmənin atdığı minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində şəhidlik zirvəsinə yüksəlib.

"N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri, Vətən müharibəsi iştirakçısı baş çavuş Yasin Qasımov məlumat verdi ki, müharibənin ilk günündən İbrahimlə birgə döyüş əməliyyatlarında iştirak edib. Onların qrupu Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələri ilə birgə Murovdağ silsiləsi istiqamətindən Kəlbəcər rayonunun Susuzluq kəndi ətrafında bir sıra döyüş tapşırıqlarını yerinə yetirib, Murovdağ silsiləsində yerləşən və düşmənin nəzarətində olan "Sağ Canavar" və "Sol Canavar" adlanan iki strateji postu, eləcə də digər hakim yüksəklikləri azad ediblər: "Biz müdafiə olunaraq geri çəkilirdik. Səhəri günü Ömər yüksəkliyinin yaxınlığında düşmən bizi aşkar edərək, şiddətli artilleriya atəşinə tutdu. Bu zaman dəstəmizin cəsur döyüşçülərindən baş çavuş Ruslan Qurbanov və əsgər Elnur Bağırov şəhid oldular, çavuş İ.Cəbrayıllı isə ağır yaralandı. İbrahimin yaralandığı yer tam açıq ərazi olduğu üçün yardım göstərməyə gedən yoldaşlar da atəşə məruz qalırdılar. Lakin buna baxmayaraq, İbrahimi oradan çıxararaq, ona ilkin tibbi yardım göstərilsə də, aldığı yaralar çox ağır olduğundan, sentyabrın 29-u günortadan sonra cəsur silahdaşımız şəhadətə yüksəldi".

"N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı, Vətən müharibəsi iştirakçısı çavuş Samir Qarayev qeyd etdi ki, ayrı-ayrı qrupların tərkibində olsalar da, müharibənin ilk günündən İbrahim şəhid olana kimi bir yerdə olublar: "İbrahim çox yaxşı snayper idi, elə öz silahı ilə döyüşə qatılmışdı. Onunla birgə iştirak etdiyim ilk və son döyüş tapşırığımız Murovdağ silsiləsinin Kəlbəcər istiqamətindəki hərbi əməliyyatlar oldu"...

Qrupumuz Susuzluq kəndi ətrafındakı mövqelərdə olarkən, Füzuli istiqamətində döyüşlərə qatılacağımızla bağlı yeni tapşırıq aldıq. Biz mövqeləndiyimiz yerlərdən dərhal qalxaraq, Ömər yüksəkliyinə tərəf irəlilədik... Səhər sübh çağı idi. Yorğun olsaq da dayanmır, yolumuza davam edirdik. İbrahimin yanımda deyil, sağ tərəfdə irəlilədiyini gördüm və yanıma çağırdım. İbrahimdən başqa bir neçə döyüşçü də o istiqamətdə irəliləyirdi. Birdən ani anda dumanın çəkilməsi ilə düşmən bizi gördü və artilleriya atəşinə tutdu. Bir neçə silahdaşımız yaralandı. Biz yaralıları düşmənin görə bilməyəcəyi böyük bir qaya parçasının yanına gətirdik və təxliyə maşınlarına təhvil verdikdən sonra digər yaralı və şəhidlərimizi çıxarmaq üçün geriyə qayıtdıq. Həmin an mən üzü



yuxarı qalxdığım istiqamətdə çavuş Ümman Baxşəliyevin və çavuş Pərvin Şahməmmədovun xərəkdə daşıdıqları yaralıya tərəf getdim. Onlardan başqa xüsusi təyinatlı qüvvələrin bir neçə hərbi qulluqçusu da xərəyin sağ və sol tərəfindən tutmuşdu. Xərəkdəki İbrahim idi. O vaxta kimi onun yaralanmasından belə xəbərim yox idi. İbrahimin yaraları çox ağır idi. İlk tibbi yardım göstərilsə də, bilək və ayaq nahiyələrindən ağır yaralandığına görə çoxlu qan itirməsi onu tamam halsız etmişdi..."

Çavuş İ.Cəbrayıllı 2020-ci il oktyabrın 1-də Zərdab rayonunun Məlikumudlu kənd qəbiristanlığında dəfn olunub. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla çavuş Cəbrayıllı İbrahim Raqub oğlu (ölümündən sonra) "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

# Kursantlarımız uğur qazanıb










Rusiya Federasiyası DİN-in Nijniy Novqorod Akademiyasında may ayında onlayn keçirilən "Hüquq elminin və təcrübənin aktual məsələləri" adlı beynəlxalq elmi-praktik videokonfrans və "Daxili işlər orqanlarının iqtisadi təhlükəsizliyin təmin edilməsi (əməliyyat-axtarış və istintaq aspektləri) və hüquqi işin təşkili üzrə fəaliyyəti" adlı beynəlxalq müsabiqənin nəticələri məlum olub.

Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının IV kurs kursantları Rəşad Bayramov və Nicat Oruclu ən yaxşı elmi-tədqiqat işi istiqaməti üzrə müsabiqənin qalibləri sırasında yer alıblar. Onlar Akademiya rəhbərliyi tərəfindən 3-cü dərəcəli diplomlarla mükafatlandırılıblar.

"Hüquq elminin və təcrübənin aktual məsələləri" adlı beynəlxalq elmi-praktik videokonfrans üzrə isə Polis Akademiyasını "Mülki hüquq" kafedrasının dosenti, polis polkovniki Rəşad Məmmədovun elmi rəhbərliyi ilə III kurs kursantı İranə Vahabova təmsil edib və I yerə layiq görülüb.

Kursantlarımızı uğurlu nəticələrinə görə təbrik edən Rusiya Federasiyası DİN-in Nijniy Novqorod Akademiyasının rəisi, polis general-mayoru D.N.Arxipov onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

*"Polis"*

# Polis köməyə çatmasaydı...

Ciddi fiziki səylər tələb edən peşələrdə təhlükə ilə üzləşmək riski çox yüksəkdir. Polis peşəsini seçənlərin də bunu göz önünə almasının nə demək olduğuna aydınlıq gətirməyə ehtiyac yoxdur. Sadəcə internetdə "xilaskar polis" yazıb axtarış versək mövzu ilə bağlı onlarla faktla rastlaşarıq. Qarşımızdakı şəxsin hansı reaksiya göstərəcəyini və ya onun hansı formada təpkisi ilə qarşılaşacağımızı əvvəlcədən proqnozlaşdırmaq iqtidarında olmasaq da baş verən hadisələrə çevik reaksiyamız an məsələsidir. Və bütün bunlar cəmiyyətin nəzərində polisin xilaskar imicini formalaşdırıb.

Ötən həftə insanların gözü qarşısında baş verən hadisə ictimailəşməsə də şahidi olanların yaddaşında hələ uzun illər qalacaq. Belə ki, epilepsiya xəstəsi olan övladını həkimə müayinəyə aparan Gülnarə Sadıqova avtobusda onu itirmək təhlükəsi ilə üzbəüz qalıb. Uşağının vəziyyətinin pisləşdiyini, dilinin qatlandığını görən ana yaxınlıqdakıları köməyə çağırsa da çoxu buna tərəddüd edib. Köməyə yenə də polis çatıb...

**Nəsimi Rayon Mühafizə İdarəsinin əməkdaşı, polis serjantı Nəsir Allahverdiyev** uşağa avtobusdaca ilkin tibbi yardım göstərib. Sonra anası ilə onu Yol Patrul Xidməti əməkdaşlarının köməkliyi ilə xəstəxanaya çatdırıb.



Polis serjantı N.Allahverdiyev: "Səhər saatlarında avtobusla xidmətdən çıxıb evə gedirdim. Birdən bir xanımın "balama kömək edin" nidasını eşitdim. İnsanlar çaşıb qalmışdılar. Özümü itirmədən onlara yaxınlaşdım. Uşağın dili qatlanmış, rəngi göyərmişdi. Cəld uşağı yan üstə çevirib dilini çıxartdım. O, asta-asta nəfəs almağa başladı. Xoşbəxtlikdən yaxınlıqda Yol Patrul Xidməti əməkdaşları xidmətdəydi. Vaxt itirmədən körpəni xəstəxanaya çatdırdıq"...

Bildirək ki, xilaskar polisimizlə bağlı məlumatı biz DİN-ə ünvanlanan təşəkkür məktubundan əldə etdik. Həyatını xilas etdiyi uşağın valideyni fikirlərini belə ifadə edirdi: "Övladımın həyatı əmin əllərdə olduqdan sonra onun adını, harada xidmət etdiyini soruşdum. Demək istəmədi, ancaq mən israr etdim. Qürur duydum ki, bizim belə həyat qurtaran oğullarımız var. Yaşasın, Azərbaycan Polisi!"...

*"Polis"*

# "Yeraltı şəhər"in xilaskarları...

Mənzil başına tez və təhlükəsiz çatmaq, tıxaclardan can qurtarmaq üçün hər gün yüzminlərlə insan metrodan istifadə edir. Onların təhlükəsizliyi isə həmkarlarımıza əmanətdir. Yerin üstündə olduğu kimi, altında da çəkdikləri zəhməti, əməyi xüsusi olaraq vurğulamağa gərək duymuruq. Çünki hər kəs bunu bilir və görür.

Bu günlərdə şahidi olduğum bir hadisə barəsində yazmağı özümə borc bildim.

İyulun 24-də saat 15:10 radələrində Koroğlu metrostansiyasında həmkarlarımızın halı pisləşən vətəndaşın həyatını qurtarmaq üçün ona ilkin tibbi yardım göstərmələrini, təcili tibbi yardım çağırmalarını görəndə gözlərimin önünə "Mən həyatımı polislərə borcluyam", - deyib redaksiyamıza təşəkkür məktubları ünvanlayan vətəndaşlar gəldi....




Şahidi olduğum məqama qədər hadisəni **manqa komandiri, polis baş serjantı Rəşad Qəniyev** belə nəql etdi: "Qatarda özünü pis hiss edən sərnişin metronun Koroğlu stansiyasında düşüb. Xidmətdə olan **polis serjantı Namiq Dadaşov** həmin şəxsin narahat olduğunu görərək ona yaxınlaşıb və xidməti otağa gətirib. **Polis serjantları – Elşən İbayev, Əli Balakişiyevlə** bərabər ilkin tibbi yardım göstərsək də həmin şəxsin vəziyyətinin get-gedə pisləşdiyini görüb dərhal Təcili Tibbi Yardıma məlumat verdik. Həkimlərin diaqnozuna görə həmin şəxs zəhərlənibmiş".

Belə hallarla tez-tez rastlaşdıqlarını bildirən R.Qəniyev onu da qeyd etdi ki, onlar həm platformada, həm də metronun ərazisində təhlükəsizliyin keşiyində ayıq-sayıqdırlar.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Hədəfimiz gəncləri qorumaqdır

## *Polisin narkotiklərə qarşı qətiyyətli mübarizəsi vətəndaş məmnunluğu ilə müşahidə olunur*



Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi, habelə narkomanlıq qlobal problem olaraq bütün bəşəriyyəti narahat etməkdədir. Bu təhlükəni aradan qaldırmaq üçün cəmiyyətin birgə səyləri tələb olunur. Yəni, hər kəs “əlini daşın altına qoyaraq” ümumi işə real köməklik göstərməli, “ağ ölüm” alverçilərini ifşa etməkdə əsl vətəndaş mövqeyi sərgiləməlidir. Yalnız bu halda istənilən nəticəni əldə etmək mümkün olar.

Bu mənada paytaxtın Suraxanı rayonunda da narkomaniyaya qarşı mübarizədə polis-vətəndaş münasibətləri ürəkaçandır. **Suraxanı RPİ Narkotiklərlə Mübarizə Bölməsinin rəisi, polis mayoru Anar İbrahimovun** sözlərinə görə, birgə səylərlə idarə əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində cari ilin birinci yarımili ərzində 132-i satış, 7-i əkin, 199-u istifadə olmaqla 333 fakt qeydə alınıb. Onlardan 13 kiloqram 312.356 qramı heroin, 22 kiloqram 747.54 qramı marixuana, 366.955 qramı psixotrop maddə metamfetamin, 325.854 qramı tiryək, 11 qramı digər narkotik maddələrdir. Ümumilikdə, 37 kiloqram 521.27 qram narkotik vasitələr qanunsuz dövriyyədən çıxarılıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi çəkisi 2 kiloqram 587.54 qram, eləcə də 169 fakt çox deməkdir.

Bölmə rəisi narkomaniya ilə mübarizədə daha bir vacib məsələyə toxunaraq antinarkotik təbliğatın gücləndirilməsinin, maarifləndirmə işlərinin səmərəsinin artırılmasının önəmini qeyd etdi. Bildirdi ki, son dövrlər narkotik vasitə və psixotrop maddələrin sosial şəbəkələr vasitəsi ilə onlayn yolla satılması hallarına tez-tez rast gəlindiyindən bəla ilə mübarizədə, həmin şəxslərin ifşa edilməsində vətəndaşlarımızın, sosial şəbəkə istifadəçilərinin, blogerlərin, kütləvi informasiya vasitələri nümayəndələrinin ortaya vətəndaş mövqeyi qoymasına ciddi ehtiyac duyulur. Təbii ki, ictimai qınaq, uşaqlara valideyn nəzarəti də daima diqqətdə saxlanılmalıdır.

Yeri gəlmişkən, bu ilin 6 ayı ərzində Suraxanı RPİ-nin təşkilatçılığı ilə “Narkomaniyaya qarşı mübarizə” tədbirləri çərçivəsində rayondakı tam orta məktəblərdə maarifləndirici tədbirlər keçirilib.

*Teymur Əlizadə,*
*polis mayoru*



# Türkiyəli məşqçi master-klass keçdi



DİN Polis Akademiyasının “Fiziki hazırlıq” kafedrasının müəllimi, polis kapitanı Natiq Eminovun dəvəti ilə “TRT Belgesel” verilişinin aparıcısı, “Döyüş Sənətləri Akademiyası”-nın prezidenti və “Vinçun” idman növü üzrə “İdman ustası” Nehar Eren əyani təhsil alan kursantlarla seminar məşğələsi keçirmək üçün Polis Akademiyasında olub.

Seminarda “Fiziki hazırlıq” kafedrasının müəllimləri, silahsız özünümüdafiə üzrə əyani təhsil alan kursantlardan ibarət yığma komanda, kurslara təyin olunmuş “Fiziki hazırlıq” üzrə təlimatçılar iştirak ediblər.

Təlimdə Nehar Eren bıçaqla vurulan zərbələrdən özünümüdafiə etmək üçün fəndlər, polis dəyənəyi ilə bıçaqlı cinayətkarın hücumunun qarşısının alınması taktikası, bıçaqlı hücumdan xəsarət alarkən ilk tibbi yardımın göstərilməsi təcrübəsini kursantlarla bölüşüb.

Sonda "Fiziki hazırlıq" kafedrasının rəisi, polis polkovniki İlham Hüseynov Polis Akademiyası rəisinin “Təşəkkürnamə”sini Nehar Erenə təqdim edib.

# Güclərini sınadılar



Bu günlərdə Saatlı rayon Olimpiya İdman Kompleksində beş çəki dərəcəsində "DİN-in silahsız özünümüdafiə üzrə bölgə yarışları" turniri keçirilib. Yarışda zona üzrə 18 Rayon Polis Şöbəsinin 72 əməkdaşı gücünü sınayıb.

Şirvan Şəhər Polis Şöbəsinin üç əməkdaşı da öz çəki dərəcələrində fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Belə ki, 85 kiloqram çəkidə çıxış edən ŞPŞ-nin Kadrlar qrupunun fiziki və döyüş hazırlığı üzrə kiçik inspektoru - təlimatçı, polis baş serjantı Murad Gözəlov, 90 kiloqram çəki dərəcəsində PPXB-nin sahə polis nəfəri, polis baş serjantı Samit İsmayılov və 90 kiloqramdan artıq çəkidə PPXB-nin sahə polis nəfəri, polis kiçik serjantı Aslan Həsənli birinci yerin sahibi kimi medal, diplom və dəyərli hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, Şirvan ŞPŞ-nin əməkdaşları komanda üzrə də birinci yerin sahibi olublar.

Ümidvarıq ki, keçirilən bu yarışlar idman sahəsində bölgə gənclərinin də inkişafına təkan verəcək, onların ölkəmizi dünya miqyasında təmsil etmələrinə şərait yaradacaqdır.

*Nizam Həmidov,*
*polis baş leytenantı*

# Nöqsanlar aradan qaldırılır



Dislokasiya ilə təhkim olunmuş avtomobil yollarında aparılan müayinələr, eləcə də DYP qurumlarından, media və ictimaiyyət nümayəndələrindən daxil olan məlumatlar əsasında hazırlanmış layihələrin icrası DİN BDYPİ-nə bilavasitə tabe olan “Siqnal” İxtisaslaşdırılmış Layihə-İstehsalat İdarəsi və onun regional istismar sahələrinin əməkdaşları tərəfindən mərhələli şəkildə həyata keçirilir. Hazırda meteoroloji şərait nəzərə alınmaqla, respublikanın bir sıra regionlarında, o cümlədən Xaçmaz, Tovuz, Zərdab, Şəki və Tərtərdə istismar müddəti keçmiş, mənaları anlaşılmayan yol nişanlarının işıqqaytarıcı elementləri olan yeniləri ilə əvəz edilməsi, yol-cizgi işarələrinin, silinmiş nişanlanma xətlərinin bərpası həyata keçirilir.

# *BİZƏ YAZIRLAR...*

Üzləşdiyi problemin həllinə görə polisə üz tutanların, müraciət edənlərin sayı az deyil. Xidməti vətəndaş məmnunluğu, etibar və etimad üzərində quran həmkarlarımız üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırlar ki, güvənc yeri kimi qazandıqları nüfuzu qoruyub saxlasınlar. Məhz bu səbəbdəndir ki, hər gün DİN-ə onlarla minnətdarlıq dolu təşəkkür məktubları ünvanlanır.

DİN-nin instaqram səhifəsinə təşəkkür mesajı yazan **Özbəkistan vətəndaşı Bobur Toşbekov** üzləşdiyi dələduzluq faktıyla əlaqədar müraciətinə dərhal reaksiya verilməsinə və həyata keçirilən operativ tədbirlərə görə Azərbaycan Polisinə minnətdarlığını bildirir.

“Atama məxsus avtomobildə baş vermiş oğurluqla bağlı Sumqayıt Şəhər Polis İdarəsinə müraciət etdim. Polis əməkdaşları tərəfindən keçirilən operativ tədbirlərlə qısa müddətdə cinayətin üstü açıldı və mənə dəymiş maddi ziyanın tam ödənilməsi təmin olundu. Xidməti vəzifə borclarını layiqincə yerinə yetirən, vətəndaş müraciətinə həssaslıqla yanaşan daxili işlər orqanlarının şəxsi heyətinə minnətdarlığımı bildirirəm”. Bu fikirlər ünvanımıza **Sumqayıt şəhər sakini Elçin Səlcuq** tərəfindən yazılıb.

Digər məktubu isə bizə vətəndaş **Könül Cəfərli** ünvanlayıb. O, pozulmuş hüquqarının bərpası ilə bağlı Bakı Şəhər Baş Polis İdarəsinə etdiyi müraciətə operativ baxıldığına, qısa müddət ərzində araşdırılaraq müvafiq tədbirlər həyata keçirildiyinə görə təşəkkürünü bildirir.

**Vətəndaş Zaur Abbaszadə** isə avtomobil yollarında təhlükəsizliyin etibarlı təmin olunmasına, polis əməkdaşlarının humanistliyinə, xoş rəftarına və nəzakətli davranışına görə Binəqədi Rayon Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşlarına minnətdarlıq edir, asayiş keşikçilərinə çətin və şərəfli peşələrində uğurlar arzulayır.

**Bakı şəhər sakini, şəhid ailəsinin üzvü Vaqif Behbudov** ünvanladığı məktubunda şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə özü və ailəsi adından DİN rəhbərliyinə minnətdarlığını ifadə edir.

**Sosial şəbəkə istifadəçisi Vüsal Cəfərov** dostunun zəhərləndiyini, yaxınlıqda olan polis əməkdaşlarının ona ilkin tibbi yardım göstərərək xəstəxanaya çatdırılmasında etdikləri köməklikdən yazır. Dostunun həyatını xilas edən, eləcə də xidməti vəzifələrini layiqincə yerinə yetirən Abşeron RPİ PPXB-nin şəxsi heyətinə təşəkkürünü bildirir.

**Bakı şəhər sakini Elxan Hüseynov** ünvanladığı məktubda ictimai asayişin və təhlükəsizliyin təmin olunmasında, hüququazidd əməllərin qarşısının alınmasında, narkotiklərin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı qətiyyətli mübarizə aparan Suraxanı RPİ-nin Narkotiklərlə Mübarizə Bölməsinin şəxsi heyətinə minnətdarlığını ifadə edir.

**Xaçmaz rayon sakini, Vətən müharibəsi qazisi Yaşar Novruzlu** məktubunda üzləşdiyi problemlə bağlı etdiyi müraciətə diqqətlə yanaşıldığını, obyektiv araşdırma aparıldığını və görülmüş tədbirlərlə müraciətinin qısa müddətdə müsbət həll olunduğunu qeyd edir. O, göstərilən operativliyə görə DİN rəhbərliyinə və Sabunçu Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Dağılan ailələr...günah kimdədir?

## Valideynlərin münaqişəsində uduzan tərəf övladlar olur

“Kiçik dövlət” olan ailələrin təməllərinin sarsılması, etibarın inamsızlıqla əvəz edilməsi hallarının get-gedə mütəmadi hal alması, təəssüflər olsun ki, bəzən cinayətlərin törədilməsinə də rəvac verir.

Səbəbini izah etməyə çalışan mütəxəssislər bunu bir çox nüanslarla əlaqələndirirlər. Bəziləri inkişaf edən texnologiyanı, sosial şəbəkələri günahkar bilir, bəziləri də insan faktorunu, onun psixoloji aləmini önə çəkir. Görünən odur ki, valideynlərin mübarizəsində uduzan tərəf övladlar olur. Baş verənlər isə onların gələcəyinə təsirsiz ötüşmür.

Bir neçə gün öncə vətəndaş İ.Qasımov (ad şərtidir) sözün əsl mənasında xoşagəlməz “sürpriz”lə qarşılaşıb. Həyat yoldaşı G.Məmmədova (ad şərtidir) Masazır qəsəbəsində kirayədə yaşadıqları evdən səhər saatlarında çıxaraq naməlum istiqamətdə gedib...

O, polisə müraciət edib. Məlum olub ki, İ.Qasımov G.Məmmədova ilə qeyri-rəsmi nikahdadır və bu nikahdan onların 3 azyaşlı övladı var.



Məsələ ilə bağlı **Abşeron RPİ-nin rəisi, polis polkovniki Şəhriyar Şəmşirli** məlumatlandırıldıqdan sonra şəxsin axtarışlarına başlanılıb. Onun tapılması istiqamətində aparılan işlər nəticə verib. Onu AAF park adlanan yerdə tapan polis əməkdaşları idarəyə dəvət edib, hadisənin səbəbini öyrənməyə çalışıblar.

**İdarənin baş təhqiqatçısı, polis mayoru Sabit Yusifov:** “Qadın evi tərk etdiyi zaman üzərində şəxsiyyət vəsiqəsi olub. Gedəcəyi ünvanı deməsə də, hadisənin baş vermə səbəbinin ailə münaqişəsi, ər-arvad münasibətlərində gərginliyin yaşandığını bizə söylədi”...

Müvafiq izahatlar alındıqdan sonra elə həmin gün qadın və uşaqları “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin nəzdində fəaliyyət göstərən gender əsaslı zorakılıq qurbanları üçün qadın və uşaq sığınacağına yerləşdiriliblər.

Qeyd edək ki, sözügedən sığınacaqda zorakılıq qurbanlarına psixoloji yardım, diqqət və qayğı göstərilir. Onlara burada müxtəlif peşələrə yiyələnmək üçün də lazımi şərait yaradılıb.

İctimai birliyin sədri Mehriban Zeynalova bu kimi halların baş verməməsi, gənc ailələrin psixoloji dayanıqlılığının təmin edilməsi naminə bütün dövlət orqanlarının səfərbər olmasının vacibliyini vurğuladı.

*Ruslan Vəliyev, polis baş leytenantı*

# Türkiyə vətəndaşı müraciət etdi və...

Günümüzdə texnologiyanın yaratdığı imkanlardan hərə öz peşəsinə, məqsədinə, düşüncə tərzinə, dünyagörüşünə uyğun bəhrələnir, yəni bu hər kəsin individual seçimidir. Ancaq sosial şəbəkə platformaları daxil heç bir halda təhqirə yol vermək, bilərəkdən məlumatı dəyişmək, eləcə də həmin məlumatı paylaşmaq, şəxsiyyəti, şərəf və ləyaqəti alçaltmaq, kimliyindən asılı olmayaraq şəxs barəsində həqiqəti əks etdirməyən məlumatlar yaymaq yolverilməzdir.




Daxili İşlər Nazirliyinin müasir texnologiyalarla peşəkarcasına işləməyi bacaran yüksək ixtisaslı kadrlarının bu hallara qarşı qətiyyətli mübarizəsinin nəticəsidir ki, təqsirkarlar qısa zaman kəsiyində müəyyən olunub ifşa edilirlər.

Hazırda Azərbaycanda yaşayan türk vətəndaşı Özgür Karataş sosial şəbəkələrdə etdiyi paylaşımlara, yazdığı postlara görə həmyerlisi, eləcə də onun azərbaycanlı dostu tərəfindən təhdid olunması, təzyiqlərə məruz qalması ilə bağlı Səbail RPİ 41-ci Polis Bölməsinə müraciət edib.

**İş bölmə rəisi əvəzi, polis polkovnik-leytenantı Vasif Həsənov** tərəfindən şəxsi nəzarətə götürülüb və dərhal araşdırılmalara başlanılıb. Müəyyən olunub ki, Ö.Karataşın sosial şəbəkə hesabına həmyerlisi tərəfindən kiberhücumlar edilib, onun icazəsi və məlumatı olmadan hesabındakı videolar tam fərqli formatda və məzmunda ictimaiyyətə təqdim olunub. Bununla bağlı zərərçəkmiş Türkiyədəki aidiyyəti qurumlara şikayət edərək təqsirkarın cəzalandırılmasını istəyib. Bundan sonra Ö.Karataşa həmyerlisinin dostu, Bakı sakini Habil Bəylərov zəng vuraraq hədə-qorxu gəlib, şikayətini geri çəkməyi tapşırıb.

Rəis əvəzi, V.Həsənovun sözlərinə görə, əməkdaşlar tərəfindən qısa zamanda H.Bəylərovun yeri müəyyən edilərək bölməyə dəvət olunub. O, izahatında türk dostları ilə aralarında anlaşılmazlığın olduğunu, təhqir, habelə təhdid etmədiyini, sadəcə onları barışdırmaq niyyəti olduğunu bildirib.

Əməlindən səmimi peşmançılıq hissi keçirdiyini etiraf edən Habilə qanunvericiliyin tələbləri izah edilməklə profilaktiki söhbət aparılıb. Tərəflərin razılığı əsasında araşdırılma dayandırılıb və toplanmış materiallar işə alınıb.

*Teymur Əlizadə, polis mayoru*




**Nizami RPİ-nin 24-cü Polis Şöbəsinə** iyulun 22-də Bakı şəhər sakini R.Rüstəmovun bank hesabından 2 min manatın oğurlanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Laçın rayon sakini S.Həsənov müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Bərdə RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş A.Salmanovun evinə baxış zamanı oradan 2 kiloqram 160 qrama yaxın heroin aşkar olunaraq götürülüb.

◆◆◆

**Binəqədi RPİ-nin 5-ci Polis Bölməsinə** iyulun 18-də Bakı şəhər sakini E.Novruzovun pulunun və mobil telefonunun quldurluq yolu ilə talanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Ağdam rayon sakini B.Səfərov saxlanılıb.

Ətrafında aparılan tədbirlərlə onun əvvəllər məhkum olunmuşlar N.Əliyev və V.Musayevlə birgə iyulun 19-da Dərnəgül qəsəbəsi ərazisində Salyan rayon sakini E.İsmayılovu və Bakı şəhər sakini F.İmamverdiyevi bıçaqla hədələyib quldurluq yolu ilə 8 min 300 manatlarını talması da müəyyən olunub.

Əməliyyat-axtarış tədbirləri nəticəsində N.Əliyev və V.Musayev də saxlanılıblar.

◆◆◆

**Səbail RPİ-nin 9-cu Polis Bölməsinə** iyulun 13-də rayon ərazisindəki mənzillərin birində seyfdən 10 min manat və 8 min avronun oğurlanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən xadimə, Bakı şəhər sakini R.Cabbarova müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Nəsimi RPİ 19-cu Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müxtəlif vaxtlarda rayon ərazisində “Nama” və “Tufan” markalı 3 mopedi, həmçinin ofislərin birindən 2 ədəd noutbuk və 4 ədəd mobil telefon oğurlamaqda şübhəli bilinən Sabirabad rayon sakini, əvvəllər məhkum olunmuş S.Abbasov müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Suraxanı RPİ-nin 32-ci Polis Bölməsinə** iyulun 20-də saat 01:00 radələrində Qaraçuxur qəsəbəsi ərazisində taksi fəaliyyəti ilə məşğul olan sürücünün avtomobilində sərnişin qismində olan qadını döyüb quldurluq yolu ilə içərisində 150 manatı olan pulqabısını talaması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Tərtər rayon sakini İ.Paşayev müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Lənkəran ŞRPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayon ərazisindəki evlərin birindən 10 min manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Aşağı Nüvədi kənd sakini E.Cahangirov müəyyən edilərək saxlanılıb.




# Kompüter şüası ziyandır

Kompüter qarşısında çox vaxt keçirmək görmə qabiliyyətinin zəifləməsinə və göz xəstəliklərinə səbəb olur. Müasir dövrümüzdə gənclər arasında tez-tez müşahidə olunan göz yorğunluğunun və quruluğun başlıca səbəbi məhz komputer şüasıdır. Adətən monitor qarşısında olan insanların gözləri tək bir nöqtəyə zillənir və nəticədə göz yorulur. Normal halda insan dəqiqədə 25 dəfə gözünü qırpır. Ancaq monitordan istifadə edərkən göz qırpma sayı 10 dəfədən az olur. Bu da gözlərdə quruluğa, göz yorğunluğuna gətirib çıxarır.

Kompüterin gözə və görmə qabiliyyətinə bu kimi mənfi təsirinin qarşısını almaq üçün bunları etmək məsləhətdir:

İlk növbədə ekranın yeri və qoyulma forması çox vacibdir. Monitor gözlərimizdən 50-70 santimetr uzaq, ekran isə 10 santimetr aşağı səviyyədə olmalıdır. Ekranın təmiz olması da vacib şərtlərdəndir. Ekran qarşısında oturduğunuz hər saatın əvvəlində gözlərinizi bağlayaraq 10 dəqiqəlik fasilə verin. Linza taxırsınızsa, gözləriniz daha tez quruyacaq. Bunun qarşısını isə göz damcıları ilə almaq olar. Monitorun qarşısında tez-tez şüurlu şəkildə gözlərinizi qırpmalısınız. Qırpma, gözlərin quruluğunu aradan qaldıraraq rahatlamasına kömək olur. Kompüter qarşısında əyləşdiyiniz otağın havası çox quru olmamalıdır. Otaqda nəmləndirmənin normal olması mütləqdir. Eyni zamanda, otağın havasını da tez-tez dəyişdirmək lazımdır.

Gününüzün çox hissəsini kompüter qarşısında keçirirsinizsə ildə bir dəfə həkim-oftalmoloqa müraciət edin.

*R.Əliyeva*

## STATİSTİKA

### Kriminal icmal

- İyulun 20-dən 27-dək olan müddət ərzində - ölkə ərazisində qeydə alınan cinayətlərdən 379-nun, eləcə də əvvəlki dövrlərdən bağlı qalan cinayətlərdən 35-nin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 255, o cümlədən borclu şəxs qismində axtarışda olan 179 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 23 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 25 nəfər ölüb, 6 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 188, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 13 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9997
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik